Qeyri-rəsmi tərcümə

# Tennessi Ştatı

## Nümayəndələr Palatası

## 48 saylı Qətnamə

Xocalı faciəsinin iyirmi birinci ildönümünün qeyd edilməsi ilə bağlı

1988-ci ildən 1994-cü ilə kimi davam edən Dağlıq Qarabağ müharibəsi Ermənistan və Azərbaycan arasında aparılmışdır;

1992-ci il 25 və 26 fevral tarixlərində Ermənistanın silahlı qüvvələri Rusiyanın hərbi birləşmələrinin müşayiəti ilə Azərbaycanda Xocalı rayonunu işğal etmiş, ərazidən xilas olmağa çalışan Azərbaycanlıların geniş kütləsi erməni və rus əsgərlərinin atəşinə tuş gələrək çoxlu sayda uşaq, qadın və yaşlılar da daxil olmaqla altı yüzdən çox nəfər qətlə yetirilmiş, 1000-dən çox insan şikəst edilmiş və 1200-dən çox mülki şəxsi əsir götürülmüşdür;

Hücumdan sonra Xocalıda tapılmış çoxsaylı mülki şəxslərin cəsədləri parçalanmış və zorakı dəyişikliyə məruz qalmış, bu da onu müharibənin ən qeyri-insani və barbar döyüşlərindən biri kimi xarakterizə etmişdir;

“Human Rights Watch” kimi beynəlxalq təşkilatlar Xocalıdakı bu qətliamı sənədləşdirmiş, əsas ABŞ və beynəlxalq xəbər təşkilatları dəhşətə gələrək bu qırğın barədə məlumat vermiş və dünyada bir çox dövlətlər bu hücumu pisləmişdir;

Bu günə kimi Ermənistan və Azərbaycan arasındakı münaqişə davam edir, Ermənistan qüvvələri Dağlıq Qarabağ regionu və ətraf yeddi rayon da daxil olmaqla Azərbaycanın iyirmi faiz ərazilərini işğal altında saxlayır;

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və Baş Assambleyası tərəfindən Ermənistan qüvvələri tərəfindən Azərbaycan ərazisinin işğalını pisləyən qətnamələr qəbul olunmuşdur;

Bu hadisə müharibənin səbəb ola biləcəyi dəhşətli qətliamların və bütün dünyada millətlər arasında anlaşmaya, qarşılıqlı ünsiyyətə və tolerantlığa davamlı ehtiyacın xatirəsidir.

**Tennessi Ştatının Nümayəndələr Palatasının yüz səkkizinci Baş Assambleyası qərara alır ki,** bununla Xocalı faciəsinin iyirmi birinci ildönümünü qeyd edilsin.

**Həmçinin qərara alınır ki,** bu qətnamənin müvafiq surətləri bu sonuncu bənd olmadan təqdimat üçün hazırlansın.